# AKADEMİK TARİH VE DÜŞÜNCE DERGİSİ

*Academic Journal of History and Idea*

**Review Article**

**Received: 12.02.2026** **Accepted: 05.06.2026**

**Aytən Vəlizadə***

[https://orcid.org/0009-0007-2521-8822](https://orcid.org/0009-0007-2521-8822)

# XXI Əsrdə Güney Azərbaycan Nəsri: Ənənə və Müasir Təmayüllər

## Southern Azerbaijani Prose in the Twenty-First Century: Tradition and Contemporary Tendencies

***Xülasə***

*Məqalədə XXI əsr Güney Azərbaycan nəsrinin formalaşması, inkişaf istiqamətləri və müasir vəziyyəti araşdırılır. Uzun müddət poeziyanın dominant mövqedə olduğu Güney Azərbaycan ədəbiyyatında nəsr son onilliklərdə mühüm inkişaf mərhələsinə qədəm qoymuş, milli kimliyin, ictimai-mədəni proseslərin və fərdi-mənəvi problemlərin bədii ifadəsində əhəmiyyətli yer tutmuşdur. Güney nəsrinin ideya və estetik əsasları XIX əsrin sonu – XX əsrin əvvəllərindəki maarifçilik hərəkatına, eləcə də 1945-ci ildən sonra formalaşan ədəbi mühitə söykənir. Araşdırmada Nasir Mənzuri, Fəriba Vəfi, Rüqəyyə Kəbiri, Fəranək Fərid, Saleh Ətayi, Eyvaz Taha və Güntay Gəncalp kimi müəlliflərin yaradıcılığı əsasında müasir Güney nəsrinin əsas xüsusiyyətləri təhlil edilir. Müəyyən edilir ki, bu nəsrdə sosial realizm, psixoloji təhlil, mifoloji təfəkkür və folklor elementləri qarşılıqlı şəkildə birləşir. Vətən, azadlıq, ana dili, sosial ədalət, ailə münasibətləri və milli yaddaş aparıcı mövzular kimi çıxış edir. Qadın obrazı isə mənəvi və sosial dəyişimin mühüm ifadə vasitələrindən biri kimi təqdim olunur. Nəticədə XXI əsr Güney Azərbaycan nəsrinin ənənə ilə müasirliyin sintezini əks etdirən, milli-mənəvi dəyərləri qoruyan və çağdaş ədəbi proseslərə inteqrasiya olunan dinamik bir inkişaf mərhələsində olduğu qənaətinə gəlinir.*

***Açar sözlər:*** *Güney Azərbaycan nəsri, XXI əsr, milli kimlik, folklor, qadın yazıçılar*

***Abstract***

*This article examines the formation, developmental trajectory, and contemporary state of Southern Azerbaijani prose in the twenty-first century. While poetry long occupied a dominant position within Southern Azerbaijani literature, prose has undergone a remarkable transformation in recent decades, emerging as an important medium for articulating national identity, socio-cultural realities, and individual experiences. The intellectual and aesthetic foundations of this literary tradition can be traced to the enlightenment movement of the late nineteenth and early twentieth centuries, as well as to the literary environment that evolved after 1945. Drawing on the works of writers such as Nasir Manzuri, Fariba Vafi, Ruqayyə Kabiri, Faranak Farid, Saleh Atayi, Eyvaz Taha, and Guntay Ganjalp, the study explores the principal characteristics of contemporary*

*PhD Candidate, Department of Literature, Institute of Literature named after Nizami Ganjavi, Azerbaijan National Academy of Sciences (ANAS), Baku, Azerbaijan, aytenvelizade@mail.ru*

Citation: Vəlizadə, A. (2026). XXI Əsrdə Güney Azərbaycan Nəsri: Ənənə və Müasir Təmayüllər. *Akademik Tarih ve Düşünce Dergisi, 13*(3), 1-7. https://doi.org/10.46868/atdd.2026.1128

***Copyright and License Statement —*** *© 2026 Akademik Tarih ve Düşünce Dergisi (Academic Journal of History and Idea). This article is published as an open access article under the terms of the Creative Commons Attribution–NonCommercial 4.0 International License (CC BY-NC 4.0) (https://creativecommons.org/licenses/by-nc/4.0/). The article may be used, shared, adapted, distributed, and reproduced in any medium or format for non-commercial purposes, provided that appropriate credit is given to the author(s) and the journal. The authors are solely responsible for the scientific, legal, and ethical content of the article; the editors and editorial board disclaim all responsibility.*

*Southern Azerbaijani prose. The analysis demonstrates that social realism, psychological exploration, mythological thinking, and folkloric elements are closely intertwined within these narratives. Themes of homeland, freedom, mother tongue, social justice, family relations, and collective memory occupy a central place in the literary discourse. Female characters, in particular, frequently function as significant agents through whom social and moral transformation is represented. The study concludes that twenty-first-century Southern Azerbaijani prose constitutes a dynamic literary field in which tradition and modernity intersect, preserving national and cultural values while simultaneously engaging with broader contemporary literary developments.*
**Keywords:** *Southern Azerbaijani prose, twenty-first century, national identity, folklore, women writers.*

## Giriş

Güney Azərbaycan nəsri XXI əsrdə həm milli kimlik, həm sosial reallıq, həm də ədəbi-estetik axtarışlar baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu araşdırmada XXI əsr Güney Azərbaycan nəsri tarixi-müqayisəli, mətnyönümlü və problem-tematik analiz prinsipləri əsasında tədqiq edilmişdir. Tədqiqat zamanı Nasir Mənzuri, Ruqiyyə Kəbiri, Fəriba Vəfi, Güntay Gəncalp, Eyvaz Taha və digər çağdaş Güney Azərbaycan yazarlarının əsərləri milli kimlik, ana dili problemi, sosial realizm, folklor-mifoloji düşüncə və psixoloji təsvir xüsusiyyətləri baxımından təhlilə cəlb olunmuşdur. Bununla yanaşı, müasir Güney Azərbaycan nəsrində müşahidə olunan janr və üslub yenilikləri müqayisəli ədəbiyyat kontekstində qiymətləndirilmiş, əsərlərin ideya-estetik xüsusiyyətləri çağdaş ədəbi prosesin ümumi istiqamətləri ilə əlaqəli şəkildə araşdırılmışdır. Aparılan təhlillər nəticəsində XXI əsr Güney Azərbaycan nəsrinin ənənə ilə müasir estetik düşüncənin qovşağında formalaşan çoxşaxəli ədəbi hadisə olduğu müəyyənləşdirilməyə çalışılmışdır.

Uzun illər Güney Azərbaycanda ənənəyə söykənildiyindən aparıcı ədəbi növ poeziya olmuşdur (Cənubi Azərbaycan tarixi, 2013). Poeziya ilə müqayisədə bədii nəsrin tarixi xeyli cavandır. Hətta bədii nəsr təşəkkül etdikdən sonra da poeziya öncüllüyünü qoruyub saxlamaqdadır. Bununla belə, Güney Azərbaycan nəsrinin özünəməxsus kökləri və tarixi ənənələri vardır. Güney Azərbaycan ərazisində əsasən ana dilində formalaşan nəsrin ilk örnəkləri 1941-ci ildən Təbrizdə nəşrə başlayan “Azərbaycan” qəzetində çap olunmağa başlamışdır (Mehdibəyova, 2019). Uzun əsrlər boyu məhdud şəraitdə qorunub saxlanılan ana dilinə marağın artması nəsrin inkişafına da mühüm təsir göstərmişdir. “Güney Azərbaycanda ədəbi mühit” adlı məqalədə qeyd olunur ki, Təbrizli Əbdürrəhim Talıbovun, Marağalı Hacı Zeynalabdinin və Məmmədəli Manafzadə Sabitin XIX əsrin sonları və XX əsrin əvvəllərində yaratdıqları romanlar, hekayələr, Seyid Cəfər Pişəvərinin felyetonları, irihəcmli “Zindan xatirələri” və digər əsərləri sonrakı dövrdə yaranan nəsr nümunələrinin formalaşmasına təsir göstərmiş, bu sahə üçün mühüm ədəbi zəmin yaratmışdır (Güney Azərbaycanda ədəbi mühit, n.d.).

Mirzə Əbdürrəhim Talıbov əsərlərində elmi maarifçiliyi, Avropa inkişaf modelinin rasional əsaslarla Şərq cəmiyyətinə tətbiqini ön plana çəkirdisə, Hacı Zeynalabdin Marağayi məşrutəçilik, parlamentarizm, elmi inkişaf və vətənpərvərlik ideyalarını təbliğ edirdi. Məmmədəli Manafzadə hekayələrində qürbətdə yaşayan həmvətənlərinin taleyini və sosial problemlərini bədii şəkildə əks

etdirirdi. S. C. Pişəvəri isə yazılarında dil hüquqları, sosial ədalət və ictimai inkişaf məsələlərinə xüsusi diqqət yetirirdi. Bu ideyalar və düşüncə istiqamətləri sonrakı dövrdə yaranan bədii nəsrin ideya-məzmun xüsusiyyətlərinin formalaşmasında, eləcə də onun növ və janr müxtəlifliyinin inkişafında mühüm rol oynamışdır (Güney Azərbaycan nəsri: Başlanğıcdan bu günə qədər: Antologiya, 2017; Cənubi Azərbaycan tarixi, 2013).

Güney Azərbaycan nəsri mürəkkəb tarixi və ictimai proseslərin təsiri altında formalaşaraq özünəməxsus inkişaf yolu keçmişdir. Bu ədəbi prosesdə müxtəlif ədəbi istiqamətləri təmsil edən, fərqli janrlarda fəaliyyət göstərən yazarlar fəal iştirak etmişlər. Nəticədə Güney Azərbaycan nəsri zəngin mövzu dairəsi, müxtəlif bədii ifadə imkanları və milli-mədəni yaddaşa bağlılığı ilə seçilən mühüm bir ədəbi hadisəyə çevrilmişdir. Bu xüsusiyyətlər onun həm Azərbaycan ədəbiyyatının ümumi inkişafında, həm də çağdaş ədəbi proses daxilində özünəməxsus yer tutmasını təmin etmişdir (Fuad, 2024).

**Tədqiqatın Metodları**

Tədqiqatda tarixi-müqayisəli, struktur-semantik və mətnyönümlü təhlil metodlarından istifadə edilmişdir. XXI əsr Güney Azərbaycan nəsrinin aparıcı nümayəndələrinin əsərləri milli kimlik, dil problemi, sosial-mədəni transformasiya, folklor-mifoloji elementlər və fərdi psixologiyanın bədii təqdimatı baxımından araşdırılmışdır. Mətnlərin təhlili zamanı onların ideya-məzmun xüsusiyyətləri, obrazlar sistemi, narrativ quruluşu və bədii-estetik xüsusiyyətləri kompleks şəkildə nəzərdən keçirilmişdir. Bununla yanaşı, müqayisəli ədəbiyyatşünaslıq yanaşmasından istifadə olunaraq müasir Güney Azərbaycan nəsrində müşahidə edilən janr və üslub xüsusiyyətləri Azərbaycan ədəbi prosesinin ümumi inkişaf meyilləri kontekstində qiymətləndirilmişdir. Araşdırma zamanı əldə olunan nəticələrin sistemləşdirilməsi və ümumiləşdirilməsi üçün analiz, sintez və interpretasiya metodlarından da istifadə edilmişdir.

**XXI Əsr Güney Azərbaycan Nəsrində Mövzu, Üslub və Bədii Axtarışlar**

Azərbaycanın Quzeyində əldə olunmuş müstəqillik Güney ədəbiyyatına da təsirsiz ötüşməmiş, ədəbi-mədəni sferada canlanma yaratmışdır. Son dövrlərdə Nasir Mənzuri, Ruqiyyə Kəbiri, Həbib Fərşbaf, Əli Daşqın, Eyvaz Taha, Səməd Niknam, Təbrizli Məmmədrza, Saleh Ətayi, Valeh Şiri, Güntay Gəncalp, Fəranək Fərid, Həmid Arğış, Məhəmməd Ərğəvan, Toğrul Atabay, Məlihə Əzizpur, İlqar Müəzzinzadə və başqa yazıçıların yaradıcılıq axtarışları bu mənada səciyyəvidir. Bu yazıçıları birləşdirən əsas cəhət onların yaradıcılıqlarında Güney Azərbaycan türkcəsini əsas ifadə vasitəsi kimi işlətmələri, milli kimlik məsələsini ön plana çıxarmaları, dilin, mədəniyyətin və milli şüurun qorunmasına xüsusi diqqət yetirmələridir.

Güneydə nəsrin bir janr kimi inkişaf etməsi və yeni nəsr nümunələrinin yaranması çağdaş ədəbi prosesin mühüm istiqamətlərindən biri hesab olunur. Esmira Fuadın fikrincə, Güney Azərbaycan nəsrinin qarşısında duran əsas məsələlərdən biri ortaq və sabit ədəbi dil meyarlarının formalaşdırılmasıdır. Müəllif qeyd edir ki, nəsr dili müxtəlif təsirlərə məruz qalsa da, milli ədəbi dilin inkişafı bədii nəsrin yetkinləşməsi üçün vacib şərtlərdəndir. Eyni zamanda, ədəbiyyatın xalqın mənəvi dünyasını və milli özünüdərkini ifadə edən əsas sənət sahələrindən biri olduğunu vurğulayaraq Güney Azərbaycan ədəbiyyatında yeni nəslin və yaradıcı qüvvələrin formalaşdığını diqqətə çatdırır (Fuad, 2024).

Müasir Güney nəsrində Nasir Mənzurinin "Avava", "Qaraçuxa", Saleh Ətayinin "Mənim adlarım", Rüqəyyə Kəbirinin "Evim", "Yerdən uca torpaq", Eyvaz Tahanın "Qurşud hardan açıldı", Hamid Əhmədinin "Tutmaz tora", Vali Gözətənin "Doqquzlar" romanı, Güntay Gəncalpın "Sezənin sevgisi", "Yüksək Birol", "Yağız qarışqalar", "Yolatayın xatirələri" və digər əsərləri müasir ədəbiyyat nümunələri kimi dəyərləndirilə bilər.

Çağdaş Güney ədiblərinin nəsr əsərlərində əsas mövzu vətəndir. Bununla yanaşı, vətənin azadlığı, özgürlük, ana dili, haqq və ədalət uğrunda mübarizə kimi mövzular da geniş yer tutur. Müasir Güney Azərbaycan nəsrində sosial realizm aparıcı istiqamətlərdən biridir. Yoxsulluq, şəhər-kənd fərqi, hüquqsuzluq və ailə-məişət problemləri tez-tez işlənən mövzular sırasındadır. Azərbaycanın Güneyində yaranan çağdaş bədii nəsrin özünəməxsus xüsusiyyətlərindən biri də mifoloji düşüncəyə, folklor qaynaqlarına söykənməsi və xalq təfəkküründən bəhrələnməsidir. Ədəbiyyat ictimai-siyasi proseslərdən kənarda qalmır, zamanın nəbzini obrazların taleyində əks etdirərək mövcud problemlərin bədii təcəssümünə çevrilir (Güney Azərbaycan nəsri, 2017).

Bu baxımdan müasir Güney Azərbaycan nəsri yalnız estetik hadisə kimi deyil, həm də ictimai yaddaşın və kollektiv təcrübənin bədii ifadəsi kimi diqqəti cəlb edir. Yazıçılar real həyat hadisələrini təsvir edərkən sadəcə müşahidəçi mövqeyi ilə kifayətlənmir, cəmiyyətin dərin qatlarına nüfuz edərək sosial ədalətsizliyin, milli-mədəni çətinliklərin və fərdi faciələrin səbəblərini üzə çıxarmağa çalışırlar. Bu əsərlərdə insan taleyi çox zaman tarixi və siyasi kontekstlə sıx bağlı şəkildə təqdim olunur və fərdin yaşantısı bütöv bir toplumun təcrübəsinin simvoluna çevrilir.

Mifoloji və folklor elementlərinin istifadəsi sosial realizmin sərtliyini yumşaldan, mətnə çoxqatlı semantik məna qazandıran mühüm vasitə kimi çıxış edir (Rəhim Əliyev, n.d.). Əfsanələr, inanclar, xalq deyimləri və arxaik obrazlar çağdaş qəhrəmanların düşüncə sisteminə daxil edilərək keçmişlə bu gün arasında mənəvi körpü yaradır. Beləliklə, yazıçı bir tərəfdən müasir problemləri qabarıq şəkildə təqdim edir, digər tərəfdən isə milli kimliyin davamlılığını və yaddaşın müqavimət potensialını ön plana çəkir.

Eyni zamanda, Güney Azərbaycan nəsrində ailə-məişət mövzuları daha geniş sosial müstəviyə çıxarılır. Ailə daxilindəki ziddiyyətlər, qadının cəmiyyətdəki mövqeyi, nəsillərarası münasibətlər fərdi səviyyəni aşaraq ümumi ictimai problemlərin göstəricisinə çevrilir. Bu əsərlərdə qadın obrazı həm məhrumiyyətlərin daşıyıcısı, həm də dəyişimin potensial subyekti kimi təqdim olunur. Bu baxımdan Rüqəyyə Kəbirinin və Fəriba Vəfinin əsərləri diqqətəlayiq nümunələr hesab edilə bilər. Nəticə etibarilə, müasir Güney Azərbaycan nəsri sosial realizm, mifoloji düşüncə və folklor qaynaqlarının sintezi əsasında formalaşan zəngin və çoxşaxəli ədəbi mənzərə yaradır. Bu nəsr dövrün ictimai-mədəni proseslərini əks etdirərək fərdi və kollektiv təcrübələri bədii müstəviyə daşıyır.

XXI əsrdə Güney Azərbaycan nəsri janr və üslub müxtəlifliyi, qadın yazıçıların ədəbi prosesdə artan rolu, eləcə də dil və üslub sahəsində müşahidə olunan yeniliklərlə səciyyələnir. Klassik realist ənənələr müasir bədii formalarla zənginləşmiş, qadın mövzusu sosial və milli kontekstdə daha dərindən işlənmişdir. Bu xüsusiyyətlər müasir Güney Azərbaycan nəsrinin ənənə ilə müasirliyin sintezi əsasında inkişaf etdiyini göstərir.

Filologiya üzrə fəlsəfə doktoru Pərvanə Məmmədli "Çağdaş Güney ədəbiyyatı" adlı məqaləsində Güney Azərbaycanın çağdaş yaradıcılıq mühitini ümumiləşdirərək qeyd edir ki, müasir ədəbi prosesdə bir tərəfdən modern və avanqard istiqamətlərin inkişafını müdafiə edənlər, digər tərəfdən isə klassik irsin yenidən dəyərləndirilməsi yolu ilə çağdaşlaşmanı vacib hesab edənlər mövcuddur. Müəllif həmçinin vurğulayır ki, çağdaş ədəbiyyatda vətən, azadlıq, sürgünlük, ayrılıq, sevgi və həsrət əsas mövzu istiqamətlərini təşkil edir, ədəbi tənqid isə bu prosesin inkişafı üçün mühüm amillərdən biridir (Məmmədli, n.d.).

Çağdaş dövrdə Güney Azərbaycan yazarlarının əsərlərinə nəzər saldıqda XXI əsr Güney nəsrini müxtəlif aspektlərdən təhlil etmək mümkündür. Janr və üslub müxtəlifliyi, dil və ifadə vasitələrində yeniləşmə, qadın yazıçıların rolunun artması bu prosesin əsas göstəricilərindəndir. Əgər əvvəlki dövrlərdə nəsr daha çox maarifçilik və publisistik-realist istiqamətdə inkişaf edirdisə, müasir mərhələdə psixoloji nəsr, simvolik hekayə, avtobioqrafik mətn və esseləşmiş nəsr formaları geniş yayılmışdır. Yazıçılar klassik süjet xəttindən qismən uzaqlaşaraq insanın daxili dünyasına, şüuraltı qatlarına və mənəvi ziddiyyətlərinə daha çox diqqət yetirmişlər. Bu baxımdan Nasir Mənzurinin əsərlərində psixoloji təhlilin dərinləşməsi, Ruqiyyə Kəbiri, Fəriba Vəfi və Fəranək Fəridin yaradıcılığında daxili monoloq və emosional gərginliyin ön plana çıxması diqqəti cəlb edir. Bu xüsusiyyətlər Karl Yunqun arxetiplər nəzəriyyəsi kontekstində də dəyərləndirilə bilər (Yunqun arxetipləri, n.d.). Həmid Arğışın əsərlərində simvolik detalların sosial məna ilə yüklənməsi müasir

nəsrin səciyyəvi üslub xüsusiyyətlərindən biridir. Onun "Tikanlı məftillər" əsəri bu baxımdan xüsusi maraq doğurur.

XXI əsr Güney Azərbaycan nəsrinin tanınmış nümayəndələrindən olan Nasir Mənzurinin yaradıcılığında folklor və mifoloji elementlər, həmçinin klassik Azərbaycan nəsrinin dil ənənələri aydın şəkildə müşahidə olunur. "Avava", "Oyunum-Oyunum" və "Qaraçuxa" romanları bu xüsusiyyətləri özündə əks etdirən mühüm əsərlər sırasındadır (Rəhim Əliyev, n.d.).

Ruqiyyə Kəbirinin "İçimdəki qız", "Ürəyim ağrıyır", Fəriba Vəfinin "Zirzəmi quşu" əsərlərində Güney Azərbaycan qadınının sosial, mənəvi və milli varlığı bədii şəkildə ifadə olunmuşdur. Həmid Arğışın "Tikanlı məftillər", Qulamrza Səbri Təbrizinin "Məsum sevgi", Fəranək Fəridin "Bənzəriş", Təbriz Məmmədrzanın "Nənəmin xatirələri", Ruqiyyə Səfərinin "Deyişmə", "Yazıçı", Zöhrə Vəfainin "Qızım, məni bağışla" adlı əsərləri də XXI əsr Güney Azərbaycan nəsrinin diqqətəlayiq nümunələri hesab oluna bilər.

Güneydə vətənə və xalqa bağlılıq güclü mənəvi dəyərlərdən biri kimi çıxış edir. Vətənpərvərlik vətənə məhəbbətə əsaslanan emosional bağlılıq olmaqla yanaşı, milli-mədəni kimliyin qorunması və tarixi yaddaşın yaşadılması ilə də əlaqələndirilir. Bu hiss xüsusilə ictimai dəyişikliklər, milli hərəkatlar və tarixi dönüş mərhələlərində daha qabarıq şəkildə özünü göstərir. Güney Azərbaycan ədəbiyyatında vətənpərvərlik mövzusu çağdaş dövrdə də aktuallığını qoruyur və müxtəlif bədii ifadə formalarında əks olunur (Güney Azərbaycanda ədəbi mühit, n.d.).

**Nəticə**

XXI əsrdə Güney Azərbaycan nəsri həm ədəbi ənənələrə bağlılığı, həm də müasir bədii-estetik axtarışlara açıqlığı ilə səciyyələnən inkişaf mərhələsi keçmişdir. Sosial realizm, mifoloji və folklor qaynaqlarına söykənən təfəkkür modeli, milli kimlik məsələsi və psixoloji dərinlik bu nəsrin əsas ideya-bədii xüsusiyyətlərini təşkil edir. Müasir yazıçılar cəmiyyətin sosial və mənəvi problemlərini fərdi talelər üzərindən təqdim etməklə bədii sözün ictimai əhəmiyyətini və estetik funksiyasını qoruyub saxlamışlar.

Araşdırma göstərir ki, XXI əsr Güney Azərbaycan nəsrində ənənə ilə müasirliyin sintezi, janr və üslub müxtəlifliyi, eləcə də milli-mədəni yaddaşın bədii şəkildə ifadəsi aparıcı istiqamətlərdən biri kimi çıxış edir. Bu baxımdan Güney Azərbaycan nəsri yalnız regional ədəbi hadisə deyil, həm də ümumAzərbaycan ədəbi-mədəni prosesinin mühüm tərkib hissəsi kimi dəyərləndirilə bilər. Beləliklə, XXI əsr Güney Azərbaycan nəsri milli-mənəvi dəyərlərin qorunması, tarixi və sosial yaddaşın bədii şəkildə yaşadılması, habelə çağdaş ədəbi düşüncənin inkişafı baxımından Azərbaycan ədəbiyyatının mühüm və ayrılmaz qollarından biri kimi çıxış edir.

**Author Contributions**

Aytən Vəlizadə solely conceived and designed the study, conducted the literature review, analyzed and interpreted the data, drafted the manuscript, and completed all revisions. The author read and approved the final version of the manuscript.

**Kaynaklar**

Cənubi Azərbaycan tarixi (XX əsr). (2013). *(2 clddə, II cild)*. Qanun Nəşriyyatı.

Fuad, E. (2024). *Güney Azərbaycan etnokulturoloji dəyərlər diskursunda*. Elm və Təhsil.

*Güney Azərbaycan nəsri: Başlanğıcdan bu günə qədər: Antologiya*. (2017). Nurlar NPM.

*Güney Azərbaycanda ədəbi mühit*. (n.d.). Ədəbiyyat qəzeti. Retrieved May 17, 2026, from https://edebiyyatqazeti.az

Mehdibəyova, M. (2019). *Cənubi Azərbaycan nəsri dünən və bu gün*. Elm və Təhsil.

Məmmədli, P. (2015). *Cənubi Azərbaycan ədəbiyyat məsələləri*. Sabah.

Məmmədli, P. (n.d.). *Çağdaş Güney ədəbiyyatı*. Azerbaijan.az. Retrieved May 17, 2026, from https://azerbaijan.az/related-information/95

Rəhim Əliyev. (n.d.). *Yazıçı və alim Nasir Mənzuri*. Avanqard. Retrieved May 17, 2026, from https://avanqard.net/rehim-eliyev-yazici-ve-alim-nasir-menzuri/n

*Yunqun arxetipləri*. (n.d.). Düşüncə. Retrieved May 17, 2026, from http://dushunce.az/entries/elmi-ara%C5%9Fd%C4%B1rma/yunqun-arxetipl%C9%99ri